*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (4) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 22.05.2023*
*Kabul tarihi |Accepted: 30.06.2023*
*Yayın tarihi |Published : 25.08.2023*

**Şahlar Şərifov**

https://orcid.org/0000-0002-0395-5174
*Docent, Dr., leading researcher, Doctor of Philosophy of the History Institute named after A.A. Bakıkhanov, Azerbaijan National Academy of Sciences, Azerbaijan, shahlarsharifov@gmail.com*

***Atıf Künyesi | Citation Info***
Şərifov, Ş. (2023). Azərbaycanın Bab Əl-Əbvab (Dərbənd) Şəhərinin Erkən Orta Əsrlər Tarixi Ərəbdilli Mənbələrdə. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (4), 986-1003.

# Azərbaycanın Bab Əl-Əbvab (Dərbənd) Şəhərinin Erkən Orta Əsrlər Tarixi Ərəbdilli Mənbələrdə

***Öz***

*Tarixdə qədim dövlətlərdən hesab olunan Azərbaycanın, özü kimi şəhərlərinin də tarixi qədimdir. Azərbaycanın qədim şəhərlərdən biri də Bab əl-Əbvab şəhəridir. Tarixi və coğrafi mövqeyinə, iqtisadi əhəmiyyətinə görə Bab əl-Əbvab orta əsrlərdə Azərbaycanla yanaşı, Yaxın və Orta Şərqin də ən məşhur şəhərlərindən biri olmuşdur. Ərəbdilli müəlliflərindən əl-Bəlazuri, əl-İstəxri, əl-Yəqubi, ət-Təbəri, Əsəm əl-Kufi, İbn əl-Fəqih, İbn Xordadbeh, İbn Havqəl, əl-Müqəddəs və başqaları Bab əl-Əbvab haqqında ətraflı məlumat vermişlər. Ərəbdilli müəlliflərin verdikləri məlumatlardan aydın olur ki, şəhərdə bir çox məşhur alimlər yaşamışdır. Onlardan Həkim ibn İbrahim ibn Həkim Dərbəndi, Hilal ibn Harun ibn Məhəmməd Dərbəndi və Əbu Bəkr Məhəmməd Dərbəndini qeyd edə bilərik. Həmçinin mənbələrdə dərbəndli yazarların nisbəsinin "əl-Babi" kimi də yazıldığının şahidi oluruq. Ərəbdilli mənbələrdə Bab əl-Əbvab böyük, məhsuldar, hasarlarla əhatələnmiş, strateji baxımdan əhəmiyyətli bir şəhər kimi qeyd olunur.*

***Açar sözlər:*** *Azərbaycan, Bab əl-Əbvab, Dərbənd, Arran, əl-Zib, orta əsrlər, Raşidi xəlifəri, Əbdürrəhman ibn Rəbiə, Salman ibn Rəbiə, Məsləmə ibn Əbdülməlik*

# Early medieval history of Bab al-Abvab (Darband) city of Azerbaijan in Arabic sources

***Abstract***

*Azerbaijan, which is considered one of the oldest states in history, has an ancient history as well as its cities. Bab al-Abwab is one of the ancient cities of Azerbaijan. Due to its historical and geographical location and economic importance, Bab al-Abwab was one of the most famous cities of the Near and Middle East along with Azerbaijan in the Middle Ages. Among the Arabic-speaking authors of the middle century, al-Balazuri, al-Istakhri, al-Yaqubi, al-Tabari, Asam al-Kufi, Ibn al-Faqih, Ibn Khordadbeh, Ibn Hawqal, al-Muqaddas and others gave detailed information about Bab al-Abwab. It is clear from the information given*

*by Arabic authors that many famous scientists lived in the city. Among them, we can mention Hakim ibn Ibrahim ibn Hakim Darbandi, Hilal ibn Harun ibn Muhammad Darbandi and Abu Bakr Muhammad Darbandi. Also, in the sources, we witness that the nisba of Darbandi writers is also written as "al-Babi". In Arabic sources, Bab al-Abwab is mentioned as a large, fertile, walled, strategically important city.*

***Keywords:*** *Azerbaijan, Bab al-Abwab, Derbent, Arran, al-Zib, middle ages, Rashidi caliph, Abdurrahman ibn Rabia, Salman ibn Rabia, Maslama ibn Abdulmalik*

## Giriş

Strateji mövqeyi, etno-siyasi və sosial-mədəni baxımdan zəngin və olduqca əhəmiyyətli ərazilərdən olan Azərbaycan, daim səyyahların, tarixçilərin, coğrafiyaşünasların maraq kəsb etdiyi vilayətlərdən biri olmuşdur. Bu baxımdan həm antik mənbələrdə, həm də orta əsr ərəbdilli-farsdilli mənbələrdə Azərbaycan və onun şəhərləri haqqında geniş məlumatlar mövcuddur. Bu mənbələrdə qədim Azərbaycan şəhərləri olan Təbriz, Marağa, Bab əl-Əbvab, Urmiya, Tiflis, Məyanic, Xuveyy, Salmas, Mərənd, Ərdəbil və digərləri haqqında ətraflı məlumatlar verilməkdədir.

Bir sıra Azərbaycan tarixçiləri və şərqşünasları öz tədqiqatlarında ərəb coğrafiyaçılarının əsərlərinə müraciət etmiş və bu mənbələrin əhəmiyyətini xüsusi olaraq qeyd etmişlər. Belə tədqiqatlar sırasında ilk növbədə Z. M. Bünyadovun (Bünyadov, 1989, s. 334), M.X. Şəriflinin (Şərifli, 2015, s. 458), S. B. Aşurbəylinin (Ashurbeyli, 1983, s. 344), N. M. Vəlixanlının (Vəlixanlı, 2016, s. 480; Vəlixanlı, 1974, s. 220; Vəlixanlı, 1993, s. 157 ), N.A. Əliyevanın (Əliyeva, 2020, s. 424 ), R. Ə. Ağayevin (Ağayev, 2017, s. 344 ), R. Ə. Mustafanın (Mustaqfa, 2019, s. 412 ). əsərlərini xüsusilə qeyd etmək lazımdır.

Əl-Bəlazuri, əl-İstəxri, İbn Havqəl, əl-Məsudi, ət-Təbəri, İbn əl-Əsir, Qudama ibn Cəfər, İbn Xəldun və digər ərəbdilli müəlliflər Xilafət dövründə Azərbaycanda mövcud olmuş şəhərlər haqqında maraqlı məlumatlar verirlər. Adlarını qeyd etdiyimiz müəlliflərin verdiyi məlumatlardan aydın olur ki, Azərbaycan şəhərləri əsasən, düşməndən müdafiə, basqın və hücumlardan mühafizə olunmaq üçün hasar və xəndəklərlə əhatə olunurdu. Bu şəhərlərdən biri də Bab əl-Əbvab şəhəri olmuşdur. Azərbaycanın orta əsr şəhərlərindən olan Bab əl-Əbvab, yerləşdiyi

mövqeyə və strateji əhəmiyyətinə görə daim tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu baxımdan istər Azərbaycan, istərsə də digər ölkələrin tarixçi alimləri Bab əl-Əbvabın keçdiyi tarixi dövrlərdən geniş şəkildə bəhs etmişlər. Bab əl-Əbvab şəhəri tarix boyu Şimalla Cənubu, eyni zamanda Şərqi Avropa ilə Yaxın-Orta Şərq ölkələrini əlaqələndirən əsas ticarət yollarından biri olmuşdur.

Qafqaz xalqlarının o cümlədən, Azərbaycan xalqının çoxəsrlik tarixində mühüm rol oynayan Bab əl-Əbvabın tarixindən bəhs edən müxtəlif dillərdə olan saysız-hesabsız mənbələr Azərbaycan və ümumqafqaz tarixini araşdırmaq üçün əhəmiyyət kəsb etməkdədir.

## I. Bab əl-Əbvabın ərəblər tərəfindən fəthi

Raşidi xəlifələrindən olan Ömər ibn Xəttabın (634-644) dövründə, 642-ci ildə baş verən Nəhavənd döyüşündə qalib gələn ərəblər bu ərazilərdə hərbi baza yaratmağa başladılar. Nəhavənddə təşkil edilən hərbi bazadan hərəkət edərək Azərbaycanın cənub-şərqinə gələn ərəblər, Azərbaycanın paytaxt şəhəri Ərdəbili fəth etdilər. Daha sonra Xəzər dənizinin qərb sahili boyunca şimala doğru irəliləyən ərəblər Muğan və Şirvan bölgələrini də fəth etmişlər. Muğanın tabe edilməsindən sonra, Bab əl-Əbvab yolu ərəblərin üzünə açılmışdır (el-Belazuri, 1955, II, s. 84-86; Numani, 1980, I, s. 273).

Tarixi mənbələr əsasında əldə etdiyimiz məlumatlar əsasında deyə bilərik ki, ərəblər Azərbaycan ərazisinə üç yolla daxil olurdular. Birincisi cənubdan, yəni sasanilərin ələ keçirilmiş ərazilərindən, ikincisi qərbdən, yəni əl-Cəzirə əyalətindən, üçüncüsü isə şimal bölgəsindən Azərbaycanın şimal-qərbinə doğru hərəkət etməklə daxil olurdular. Şərqi Anadolu və Ərməniyəni ələ keçirən ərəblər Azərbaycan torpaqlarına asanlıqla daxil ola biləcəkləri halda, daha çox cənub yolundan, Həmədan və Reydən hərəkət etməyə üstünlük verirdilər. Ərəblərin qərb yolundan istifadə etməmələrinin birinci səbəbi bu yolun yüksək dağ silsilələrindən keçməsi idi. İkincisi isə, qərb yolları bir başa şimala aparırdı. Bab əl-Əbvabı fəth etmədən bu yolla hərəkət etmək müsəlman ərəblər üçün təhlükə yaradırdı. Eyni zamanda Bizans kimi təhlükəli düşmənə arxa çevirib, xristian Albaniyaya daxil olan ərəblər, Bizansın

güclü rəqibi olan xəzərlərlə qarşılaşmaqdan qorxurdular. Bununla yanaşı Azərbaycanın cənubu da tam olaraq tutulmamışdır. Muğanın ələ keçirilməsi və Bab əl-Əbvab yolunun açılmasından sonra ərəblər həm qərbdən, həm də cənubdan Azərbaycan torpaqlarına daxil olurdular.

643-cü ildə baş verən Cərmizan döyüşündən sonra Simak ibn əl-Hərəşə, Bukeyr ibn Abdullah və Utbə ibn Fərqədin başçılıq etdiyi Xilafət ordusu bir neçə qala istisna olmaqla, Cənubi Azərbaycanı tamamilə ələ keçirdilər. Cənubi Azərbaycanın tabe edilməsindən sonra Bukeyr ibn Abdullah baş verən hadisələr haqqında xəlifə Ömərə məlumat vermək üçün ona məktub yazdı. Cavab məktubu ilə Cənubi Azərbaycanın idarəsini Utbə ibn Fərqədə tapşıran xəlifə, eyni zamanda Simak ibn Xərəşə və ordusunun da onun əmrinə keçməsini bildirdi. Gərmizan döyüşündə əsir düşən Azərbaycan hakimi İsfəndiyarı Utbə ibn Fərqədin yanında qoyan Bükeyr ibn Abdullaha isə şimala, Bab əl-Əbvaba doğru hərəkət etməsi əmr olunurdu (Şərifov, 2016, s. 12-16; İbn əl-Əsir, 1987, II, s. 429; İbn el-Esir, 1986, III, s.28; ət-Təbəri, 1362, V, s. 1980).

Azərbaycanın fəthinə böyük önəm verən xəlifə Ömər, ölkənin şimal-şərqində yerləşən Şirvan məmləkətini və Bab-əl-Əbvabı İslam torpaqlarına birləşdirmək istəyirdi. Muğanın fəthindən sonra xəlifənin əmri ilə Bukeyr ibn Abdullah şimala doğru hərəkət etməyə başladı. Eyni zamanda xəlifə Ömərin təlimatları əsasında, Şirvana yürüş üçün Kufədə böyük bir ordu hazırlandı. Bu ordunun sağ və sol cinahlarına Hüzeyfə ibn Useyd və Bukeyr ibn Abdullah, avanqard qüvvələrə isə Əbdürrəhman ibn Rəbiə başçı təyin edilmişdi (Şərifov, 2016, s. 12-16; Şərifov, 2019, s. 57-69). Təchizat işləri Əbdürrəhmanın qardaşı Salmana tapşırılmışdı. Sürəqa ibn Əmrin baş sərkərdə təyin edildiyi bu ordu, verilən təlimatlara əsasən Kufədən hərəkət etmişdi (ət-Təbəri, 1970, IV, s. 155-156; İbn əl-Kəsir, 1998, X, 155-156; İbn el-Kesir, 1994, VII, s. 203; İbn əl-Əsir, 1987, II, s. 430; İbn el-Esir, 1986, III, s. 28). Bu ordunun göndərilməsi ilə kifayətlənməyən xəlifə Ömər, əl-Cəzirə valisi Həbib ibn Məsləməni də Sürəqa ibn Əmrin ardınca Şirvana göndərdi ( ət-Təbəri, 1362, V, s. 1982; İbn əl-Əsir, 1987, II, s. 430; İbn el-Esir, 1986, III, s. 28).

Əbdürrəhman ibn Rəbiənin başçılıq etdiyi dəstə Bab əl-Əbvab ətrafına gəldikdə, məmləkətin hakimi Şəhribəraz tərəfindən yaxşı qarşılandı (ət-Təbəri, 1970, IV, s. 156).

Şəhribəraz xəbər göndərərək ərəb sərkərdəsi Əbdürrəhmanla görüşmək istədiyini bildirir. Onun bu istəyi qəbul olunduqdan sonra Əbdürrəhmanın düşərgəsinə gələn Şəhribəraz bu diyarın insanlarının müxtəlif xalqlardan təmsil olunduqlarını və onlardan məmnun olmadığını bildirməklə yanaşı, ərəblərlə əlbir olmaq istədiyini bildirdi. Buna qarşılıq Şəhribəraz idarəsi altında olan əhalinin cizyə vergisindən azad olunmasını istədi. Bu danışıqlardan sonra Əbdürrəhman onu baş sərkərdə Sürəqa ibn Əmrin yanına göndərdi. Onun istəyini dinləyən Sürəqa yalnız ərəblərlə birlikdə hərbi səfərlərdə iştirak edənləri cizyədən azad edə biləcəyini bildirdi. Eyni zamanda xilafətin mərkəzi Mədinəyə məktub yazan Sürəqa, Şəhribərazın istəyini xəlifə Ömərə çatdırdı. Sürəqanın təklifini bəyənən xəlifə Ömər aşağıda qeyd edəcəyimiz şərtlərlə müqavilənin imzalanmasına razılıq vermişdi (ət-Təbəri, 1970, IV, s. 156; İbn əl-Əsir, 1987, II, s. 430). Bu şərtlər altında müqavilənin yalnız Şirvan və Arran əhalisi ilə bağlanması heç də təsadüfi deyildi. Qafqaz dağlarındakı keçidləri və yolları tanıyan Şəribəraz və idarə etdiyi insanlar, xəzərlərin döyüş taktikasına bələd idilər. Xəlifə Ömərin göstərişindən sonra Şəhribərazla aşağıdakı şərtlər əsasında müqavilə bağlanmışdı:

“Bu, xəlifə Ömər ibn Xəttabın valisi Sürəqa ibn Əmr tərəfindən Şəhribəraza və Ərməniyədə yaşayanlara verilən amannamədir. Hər hansı bir hadisənin baş verib-verməməsindən asılı olmayaraq, hərbi səfərdə və valinin uyğun gördüyü yürüşdə iştirak etmək şərtilə onların canları və malları qorunacaq, dinləri və məzhəblərinə, dini ayinlərinin icrasına toxunulmayacaq və onlara mane olunmayacaqdır. Zərər və ziyana uğramayacaqlar, heç bir şeyləri əskilməyəcəkdir. Bu amannamə Ərməniyə əhalisinə, əl-Bab bölgəsindəki dağlarda, dağ kənarlarında məskunlaşanlara, onlarla qonşu ərazilərdə yaşayanlara və şərtləri qəbul edən hər kəsə şamildir. Bu şərtləri qəbul edən şəxslər cizyə vergisindən azad olunacaqlar. Səfərbərlikdə iştirak etmək də cizyə yerinə keçərlidir. Səfərbərlikdə iştirak etmək istəməyənlər Azərbaycan

əhalisinin ödədiyi miqdarda cizyə ödəməlidirlər. Hərbi səfərlərdə iştirak etdikləri zaman vegidən azad olunduqları kimi, hərbi yürüş bitdikdən sonra yenidən vergini ödəməli olacaqlar... Müqavilənin şərtlərinə Əbdürrəhman ibn Rəbiə, Salman ibn Rəbiə, Bukeyr ibn Abdullah şahidlik etdilər. Müqaviləni Mərdiyy ibn Müqərrin yazdı və şahid oldu (Şərifov, 2016, s. 12-16; ət-Təbəri, 1970, IV, s. 156-157). Ət-Təbəri müqavilənin tarixini qeyd etməsə də azərbaycanlı tarixçi Abasqulu Ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində Sürəqa ibn Əmrin Şirvan səfərinin 644-cü ildə baş tutduğunu qeyd edir (Bakıxanov, 1991, s. 51).

Ərəbdilli tarixçilərdən olan ət-Təbəri "Tarix", İbn Kəsir isə "əl-Bidayə van-Nihayə" adlı əsərlərində ərəb sərkərdələrindən olan Əbdürrəhman ibn Rəbiənin Arrana gəlməsi, burada olduğu müddətdə onunla Şəhribəraz arasında baş tutan dialoq haqqında ətraflı məlumat verilməkdədir (ət-Təbəri, 1970, IV, s. 156; İbn əl-Kəsir, 1998, X, s. 155).

Ərəblərin sərkərdə Salman ibn Rəbiənin başçılığı ilə Samur çayını keçərək Bab əl-Əbvaba yaxınlaşdığından xəbər tutan Xəzər xaqanı, ətrafında 300 minlik ordunun olmasına baxmayaraq geriyə, şimala doğru çəkildi. Bundan istifadə edən Salman ibn Rəbiə, xəzərləri təqib etmək üçün şimala doğru hərəkət edib, ordugah şəhəri olan Yarqunu ələ keçirərək xəzərlərə yaxın bir yerdə ordusunu yerləşdirdi. 653-cü ildə baş verən və altı gün davam II Bələncər döyüşündə xəzərlər yenidən qalib gəldi. Salman ibn Rəbiə başda olmaqla bir çox ərəb əsgəri öldürüldü. Onların məzarları Dərbəndin şimalında "Qubur-uş-şühəda" (şəhidlərin qəbirləri) adlanan yerdədir (Şərifov, 2020, s. 685-699; Əsəm əl-Kufi, 1991, I-II, s. 344-345; Əsəm əl-Kufi, 1995, s. 10-11).

Salman ibn Rəbiənin Ərməniyə səfərində Bab əl-Əbvaba qədər gəldiyini nəzərə alsaq (Şərifov, 2020, s. 685-699; Artamonov, 1962, s. 179), bu zaman Bab əl-Əbvabda olan Əbdürrəhman ibn Rəbiənin də ordusu ilə Bələncər qalasını mühasirəyə aldığını, onun 643-cü ildə xəzərlər tərəfindən öldürülməsindən sonra isə sağ qalanların Salmanın ordusu ilə birləşib Cənubi Azərbaycana qayıtdıqlarını deyə

bilərik. Lakin bir müddət sonra 653-cü ildə Salman ibn Rəbiə də II Bələncər döyüşündə xəzərlər tərəfindən öldürülür (Şərifov, 2020, s. 685-699; İbn el-Esir, 1986, III, s. 137).

Salman ibn Rəbiənin öldürülməsi ilə başa çatan II Bələncər döyüşündən sonra bir müddət xəzərlərlə ərəblər arasında döyüş baş verməmişdir. Ərəblərlə xəzərlər arasında baş verən sonrakı döyüşlər Əməvilər dövründə (661-750) baş tutmuşdur.

693-cü ildə xəlifə Əbdülməlik ibn Mərvanın dövründə məşhur ərəb sərkərdələrindən olan Məhəmməd ibn Mərvan, böyük bir ordu ilə Bab əl-Əbvaba doğru hərəkət edir. Lakin qısa müddət sonra Ərməniyə əhalisinin üsyan etməsi ilə əlaqədar olaraq qırx minlik qoşunla əraziyə daxil olan Məhəmməd ibn Mərvan, üsyançı dəstəni məğlub etməklə yanaşıl, bir çoxunu da kilsələrdə yandırır (Əsəm əl-Kufi, 1991, V-VI, s. 352). VIII əsrin əvvələrini əhatə edən otuz illik Ərəb-Xəzər müharibələrində ərəb ordularına başçılıq edən Məsləmə ibn Əbdülməlik, Cərrah ibn Abdullah, Səid ibn Amr əl-Hərəşi və Mərvan ibn Məhəmməd kimi məşhur sərkərdələr Azərbaycan və Ərməniyə valiləri olmuşlar (Şərifov, 2020, s. 685-699).

Ərməniyədə asayişin bərpa edilməsindən sonra Məhəmməd ibn Mərvanın göstərişi ilə Məsləmə ibn Əbdülməlik Bab əl-Əbvabın fəthi üçün göndərildi. 80000 nəfərlik Xəzər ordusunun Bab əl-Əbvabı müdafiə etməsinə baxmayaraq, şəhər ərəblərə təslim edilmişdir. Bab əl-Əbvabda bir müddət qalaraq asayişi bərpa edən və bir çox ərəb əsgərini burada yerləşdirən Məsləmə, vali Məhəmməd ibn Mərvanın yanına qayıtmışdır (Şərifov, 2020, s. 685-699; Əsəm əl-Kufi, 1991, V-VI, s. 353-354).

Qeyd etdiyimiz kimi Azərbaycan şəhərlərindən olan Bərdənin tabe edilməsindən sonra ərəblər Kür çayının sol sahilində yerləşən əraziləri ələ keçirməyə başladılar. Şimala doğru hərəkət edən ərəblər əsasən Şirvan və Bab əl-Əbvaba sahib olmaqla yanaşı, Cənubi Qafqazda xəzərlərin ağalığına son qoymağa çalışırdılar (Hacıyev, 2008, s. 81).

Ərəbdilli müəlliflərdən olan Əsəm əl-Kufinin verdiyi məlumata görə, sərkərdə Salman ibn Rəbiənin başçılığı ilə Kür çayına qədər hərəkət edən ərəblər

çayın o biri sahilinə keçirlər. Şirvan vilayətində düşərgə salan ərəblər, vilayətin hakimi ilə vergi ödəmək qarşılığında müqavilə bağlayırlar. Daha sonra Şabranla Məsqəti də tabe edən Salman ibn Rəbiə, ətrafdakı hakimlərə də xəbər göndərib onlarla görüşmək istədiyini bildirdi. Sərkərdə Salmanın dəvətini qəbul edən əl-Lakz, Filan və Təbasaran hakimləri pul və hədiyyələr gətirməklə yanaşı, hər il müəyyən edilmiş vergini də ödəməyə razı olduqlarını bildirdilər. Şirvan, Şabran, Məsqət, əl-Lakz, Filan və Təbasaran hakimlərinin təklif və istəklərini qəbul edən Salman, daha sonra xəzərləri təqib etmək üçün Bab əl-Əbvaba doğru hərəkət etdi. Sərkərdə Salmanın başçılığı altında olan Xilafət ordusunun sürətlə yaxınlaşdığını öyrənən xəzərlər Xaqanın göstərişi ilə şimala doğru geri çəkilməyə başladılar. Çətinlik çəkmədən şəhərə daxil olan ərəblər, üç gün sonra Salmanın əmri əsasında hərəkət edərək xəzərlərin qərargahına yaxın olan Yarqu şəhərini ələ keçirdilər. Ərəblərin ordugahını müşahidə edərək istədiyi məlumatları əldə edən Xaqan və ordusu qəfil hücuma keçərək onlardan bir çoxunu qətlə yetirdilər. Qətlə yetirilən ərəblərin qəbri Bab əl-Əbvabın şimalında "Qubur-uş-şühəda" adlanan yerdədir (Əsəm əl-Kufi, 1991, I-II, s. 345; Şərifov, 2020, s. 685-699; Şərifov, 2018, s. 89-99). Orta əsrlərin ərəbdilli tarixçilərindən olan Yaqut əl-Həməvinin verdiyi məlumata görə, sərkərdə Salmanın cənazəsini məbədə aparan xəzərlər, ona təbərrük edərək dua edirdilər (Yaqut əl-Həməvi, 1977, I, s. 305; Şərifov, 2018, s. 89-99). Bu məğlubiyyət nəticəsində Azərbaycanın bir çox əraziləri ərəblərin tabeliyindən çıxmış oldu.

Əməvi xəlifəsi Vəlid ibn Əbdülməlik Bab əl-Əbvabı Əməvi Xilafətinə tabe etmək üçün məşhur sərkərdələrdən olan qardaşı Məsləməni göndərdi. Xəzərlərə qarşı apardığı yürüşlərdə uğur qazanan Məsləmə, daha sonra Əbdüləziz əl-Bəxilini Gəncə və Şirvan əyalətlərinə hakim təyin etmişdir (Məmmədov, 2010, s. 163-171).

Mənbələrdən əldə etdiyimiz məlumatlara görə, ilk ərəb yürüşləri zamanı Həmədan və Zəncandan tutmuş Bab əl-Əbvaba qədər olan torpaqlar Azərbaycan ərazisi hesab olunurdu. Şimal sərhədi Bab əl-Əbvabadək uzanan Azərbaycanın şimal hissəsi Arran və Sünik Curzanın bir hissəsi ilə birlikdə xəzərlərin tabeliyində idi (İbn əl-Fəqih, 1880, s. 287). Azərbaycan və Arranın tabe edilməsindən sonra, bu

vilayətlərin inzibati baxımdan yalnız adı dəyişirdi. İbn əl-Fəqihin verdiyi məlumatlardan aydın olur ki, Bərdədən Zəncana qədər əraziləri əhatə edən Azərbaycanın son nöqtəsi Varsan şəhəri hesab olunur. Bərdə və Zəncanı Azərbaycana aid etməyən İbn əl-Fəqih onun hüdudunu Araza qədər qeyd edir (İbn əl-Fəqih, 1880, s. 285). Digər ərəbdilli müəlliflərdən olan əl-Yəqubi isə Arranı da Azərbaycana daxil edərək bu ərazini "Yuxarı Azərbaycan" adlandırır (əl-Yəqubi, 1860, s. 47). Azərbaycanı, Arranı və Ərməniyəni bir inzibati vahiddə birləşdirərək bir canişinlik kimi qeyd edən ərəblər, bu əraziləri "Ərməniyə" və ya "Azərbaycan" adlandırırdılar. Bütün bu qeyd edilənlər cənubda Həmədandan başlayıb, şimalda Bab əl-Əbvab da daxil olmaqla geniş bir ərazini əhatə edən Azərbaycanın, böyük bir ölkə olduğunu sübut etməkdədir (Bünyadov, 1989, s. 136). 738-ci ildə Əməvilər zamanında Bab əl-Əbvabda vali olan Mərvan ibn Məhəmməd tərəfindən toplanan vəsait şəhərin əsgərlərinə maaş olaraq verilirdi (Bünyadov, 1989, s. 118-119).

Bab əl-Əbvabın dayaq məntəqəsi olaraq üstünlüklərini nəzərə alan ərəb xəlifələri, ətraf ərazilərlə yanaşı gəlir məntəqələrini də vəqf olaraq müdafiəçilər arasında bölüşdürürdülər. Abbasi xəlifələrindən olan əl-Mehdinin (775-785) əmri ilə 777-ci ildə Bab əl-Əbvabın ətraf yerlərinin illik xəracı toplanaraq döyüşçülərlə şəhər əhalisi arasında bölüşdürülmüşdür. Xəlifə əl-Mutəmid (870-892) hakimiyyətinin əvvəllərində bir çox əraziləri vəqf olaraq Bab əl-Əbvab əhalisinə versə də, üç il sonra bu ərazilər Şirvan hakimi tərəfindən onlardan geri alınmışdır.

Bundan on il sonra xəlifə əl-Mutəmidin fərmanı ilə Şirvanın neft və duz mədənlərinin yarısı, 885-ci ildə isə Bakının neft və duz mədənləri də vəqf olaraq yenidən Bab əl-Əbvab döyüşçülərinə vəqf edilmiş, Məhəmməd ibn Əmmar (və ya Ummar) isə bu bölgəyə vergi toplayan təyin edilmişdir. 902-ci ildə xəlifə əl-Müktəfinin (902-908) verdiyi fərmana əsasən Bab əl-Əbvaba hakim olaraq Bişutur adlı bir şəxs təyin edilir. Sahib olduğu vəzifədən sui-istifadə edən Bişutur, neft və duz mədənlərindən əldə olunan gəlirlərə əl qoyur. Bu da döyüşçülər arasında rüşvətxorluğa və nizamsızlığa səbəb olur (Bünyadov, 1989, s. 133). Tədqiq etdiyimiz mənbələrdən əldə etdiyimiz məlumatlar əsasında deyə bilərik ki, X əsrdə

Bakı nefti Azərbaycanla yanaşı, bir çox ölkələrdə də işlədilirdi. Hətta İraqda, Deyləmdə və Gilanda da işlədilən neft Bakıdan aparılırdı (Hüdud əl-aləm, 2002, s. 169).

Orta əsr ərəbdilli coğrafiyaşanas alimlər Azərbaycanı, Ərməniyəni və Arranı xəritədə bir ölkə kimi qeyd etməklə yanaşı, onun şərqdən Cibal, Deyləm və Xəzər dənizinin qərb hissəsilə, qərbdən Ərmən, Allan hüdudu və Cəzirənin bir hissəsilə, şimaldan Allanlar və Qabq dağları ilə, cənubdan isə İraq hüdudu və Cəzirənin şərq hissəsilə əhatə olunduğunu yazırlar (əl-İstəxri, 1870, s. 180-181).

Azərbaycanı gəzərək onun xəritəsini tərtib edən coğrafiyaşünas alim İbn Havqəl Azərbaycan, Arran və Ərməniyənin ümumi xəritəsini tərtib edərək, onu "Azərbaycanın xəritəsi" adlandırmışdır (İbn Havqəl, 1928, s. 331-332). Bununla yanaşı Xəzər dənizinin də xəritəsini çəkən İbn Havqəl, bütün sahil ərazisini Bab əl-Əbvabədək Azərbaycan adlandırır (İbn Havqəl, 1928, s. 387). Əsərin başqa bir yerində müəllif belə qeyd edir: "Qərbə doğru, Rum sərhədlərinə tərəf çevrilib onun şərq hüdudları və islamın ən uzaq hədlərində olan vilayətləri təsvir etməyə başlaşaq, qeyd etdiyimiz ilk ölkələr Ərməniyə, Arran və Azərbaycan olacaqdır. Bir vilayət kimi qeyd etdiyimiz bu ölkələr, şərqdən Cibal, Deyləm və Xəzər dənizinin qərb hissəsilə, qərbdən Ərmən, Allan hüdudu və Cəzirənin bir hissəsilə, şimaldan Allanlar və Qabq dağları ilə, cənubdan isə İraq hüdudu və Cəzirənin şərq hissəsilə əhatə olunmaqdadır" (Şərifov, 2018, s. 176-181; İbn Havqəl, 1928, s. 331-332). Gördüyümüz kimi İbn Havqəl də Azərbaycanın sərhədlərini eyni ilə əl-İstəxrinin qeyd etdiyi kimi yazmaqdadır.

Orta əsrlərdə Azərbaycanda Bərdə, Bakı, Şamaxı, Şabran, Bab əl-Əbvab, Gəncə, Beyləqan, Naxçıvan, Ərdəbil, Marağa, Mərənd kimi iqtisadi baxımdan əhəmiyyətli şəhərlər mövcud olmuşdur. Azərbaycanın orta əsr şəhərləri haqqında məlumat verən İbn Havqəl, Arranda Bərdənin, Bab əl-Əbvabın və Tiflisin böyük şəhər olduqlarını, Beyləqanın, Varsanın, Bərdicin, Bərzəncin, Şamaxının, Şirvanın, Şabranın, Qəbələnin, Şəkinin, Cənzənin, Şəmkirin və Xunanın isə bir-birinə bənzər, lakin kiçik şəhər olduqlarını bildirir (İbn Havqəl, 1928, s. 342). Qeyd etdiyimiz

şəhərlərin coğrafi və təbii şəraiti haqqında məlumat verən müəllif, onların ağaclarla, taxıl zəmiləri və ərik ağacları ilə örtüldüyünü bildirdikdən sonra əlavə olaraq, bu şəhərlərdə meyvələrin ucuz, yeyinti məhsullarının isə demək olar ki, havayı olduğunu bildirir (İbn Havqəl, 1928, s. 336).

Azərbaycan şəhərləri arasındakı məsafələr haqqında məlumat verən X əsrin müəllifi əl-İstəxri, Bərdədən Bərzəncə 18, Bərzəncdən Şamaxıya 14 fərsəng, Şamaxıdan Şirvana üç günlük, Şirvandan Abxaza iki günlük yol olduğunu, Abxazdan Cisri Samura 12 fərsəng, Cisri Samurdan Bab əl-Əbvaba isə 20 fərsəng məsafə olduğunu bildirir (əl-İstəxri, 1870, s. 192).

Orta əsrlərdə Azərbaycan şəhərlərindən olan Bab əl-Əbvabda kətan parçalardan hazırlanan paltarlar müxtəlif ölkələrə aparılırdı (əl-İstəxri, 1870, s. 184). Azərbaycan vilayətlərində hazırlanan mahud, kəndir və boyanın xaricə ixrac olunduğunu qeyd edən əl-Müqəddəsi, həmçinin Bərdədən ipək parçaların, baş örtüklərinin, Bab əl-Əbvabdan isə kətan paltarların, qulların, zəfəran və qoşqu heyvanlarının da ixrac olunduğunu bildirir (əl-Müqəddəsi, 1991, s. 373, 379).

Ərəb tarixçilərinin də qeyd etdikləri kimi Arran torpaqlarını ələ keçirərək onlara sahib olan ərəblər, bu torpaqları xilafət ordusunda iştirak edən şəxslər arasında bölüşdürürlər. Bab əl-Əbvabı ələ keçirən ərəblər buranın Xilafətin şimal hüdudlarında əhəmiyyətli mövqe tutduğunu anlayaraq, xilafət torpaqlarını xəzərlərin hücumlarından qorumaq üçün şəhərdə güclü qarnizon saxlayırdılar. Orta əsr müəlliflərindən olan əl-Bəlazuri və Qudama ibn Cəfərə görə, bu dövrdə sərkərdə Məsləmə ibn Əbdülməlik Bab əl-Əbvab şəhərinə Şam vilayətindən 24 min nəfər ərəb köçürmüşdür (əl-Bəlazuri, 1866, s. 208; Qudamə ibn Cəfər, 1981, s. 333).

## II. Orta əsr ərəbdilli qaynaqlarda Bab əl-Əbvab (VIII-XIV əsrlər)

Qeyd etdiyimiz kimi Azərbaycanın qədim və əzəli şəhərlərindən biri də Bab əl-Əbvab şəhəri olmuşdur. Təəssüf ki, XIX əsrin əvvəllərində baş verən məlum hadisələrdən sonra 1806-cı il iyunun 22-də şəhər ruslar tərəfindən işğal edilmişdir. Orta əsr ərəbdilli mənbələrdə qədim Azərbaycan şəhərlərindən olan Bərdə, Beyləqan, Şabran, Şamaxı, Bab əl-Əbvab, Məsqət, Qəbələ və s. şəhərlərin Sasani

şahlarının, xüsusilə Ənuşirvanın dövründə inşa edilməsi haqqında məlumatlar öz əksini tapmaqdadır (İbn Xordadbeh, 1889, s. 122; İbn əl-Fəqih, 1880, s. 286-288; Yaqut əl-Həməvi, 1977, III, s. 304).

Tarixçi əl-Bəlazuriyə görə, Şabran, Məsqət, Bab əl-Əbvab şəhərlərini, Cirdman və Samşuldi qalalarını Sasani kəsralarından olan Ənuşirvan tikdirmişdir (əl-Bəlazuri, 1866, s.194-195). Ərəbdilli müəlliflərdən olan İbn Xordadbeh də Şabran, Kərkərə və Bab əl-Əbvab şəhərlərinin Ənuşirvan tərəfindən inşa edildiyini bildirir. İbn Xordadbehin verdiyi məlumatdan aydın olur ki, Qafqaz dağları ilə dəniz arasındakı dərədə yerləşən Bab əl-Əbvab şəhəri Kəsra Ənuşirvan tərəfindən tikilmişdir (İbn Xordadbeh, 1889, s. 123).

Orta əsr tarixçilərinin və coğrafiyaşünasların verdiyi məlumatlardan Bab əl-Əbvab şəhərinin Sasanilər dövründə inşa edildiyi bir daha aydın olur. X əsr müəlliflərindən olan İbn əl-Fəqihə görə, Şabran, Məsqət və Bab əl-Əbvab dağlardakı yollar üzərində yerləşdiyi üçün "bab" (qapı) adlanırlar. Qafqaz dağlarının zirvəsindən başlayaraq Xəzər dənizinə qədər uzanan Bab əl-Əbvab şəhəri, dənizi üç mil məsafədə yararaq dənizin içərisinə daxil olur (İbn əl-Fəqih, 1996, s. 584).

Coğrafiyaşünas alim əl-İstəxriyə görə, qədim Bab əl-Əbvab şəhərinin ətrafına gildən, kərpicdən və daşdan hörülmüş möhkəm divar çəkilmişdir (əl-İstəxri, 1870, s. 185-186). A.A.Bakıxanov Dərbənd səddinin çəkilməsi haqqında məlumat verərkən bunları qeyd edir: "Bu səddin bir milə qədəri Xəzər dənizinin içində olub, qalan hissəsi isə Qara dənizə qədər uzanıb getmişdir. Sasani şahı Qubad əmr etdi ki, hasarı torpağın və qumun altından çıxarıb təmir etsinlər. Hasarı Təbəsaranın yuxarısına qədər çəkib, ona dəmir qapılar saldılar. Bundan sonra o, Dərbəndin cənub tərəfindəki divarı çəkdirdi və şəhərin binasını qoydu. Bu işlər yeddi ilə tamam oldu" (Bakıxanov, 1991, s. 47). Dərbənd səddinin çəkilməsilə şimal tayfalarının hücumlarının qarşısı alınmış, nəticədə Şirvan və Azərbaycan arası kəsilməyən hücumlardan azad olmuşdur. Bab əl-Əbvab tərəfində yerləşən "Əl-zıb" adlı dağın zirvəsinə hər il çoxlu odun toplayan yerli əhali düşmən hücumu zamanı toplanan odunu yandıraraq

Azərbaycan, Arran və Ərməniyə əhalisini xəbərdar edirdilər (Yaqut əl-Həməvi, 1977, I, s. 303).

Bab əl-Əbvabın ərəblər tərəfindən tutulmasına toxunan A.A.Bakıxanov belə yazır: "Dərbəndi tutmaq üçün Raşidi xəlifələr dövründə Sürəqa ibn Əmr, Əbdürrəhman ibn Rəbiə və qardaşı Salman ibn Rəbiə əl-Bahilinin başçılığı altında olan ordularla ardıcıl yürüşlər edilsə də, daim Xəzərlərin güclü müqaviməti ilə qarşılaşan xilafət ordusu davamlı uğur əldə edə bilməmiş, Sürəqa, Əbdürrəhman və Salman Xəzərlər tərəfindən öldürülmüşdür" (Bakıxanov, 1991, s. 49-52).

Cənub istiqamətindən şimal ölkələrinə gedən ticarət yolu Bab əl-Əbvabdan keçirdi. Bu dövrdə ərəblərin hakimiyyəti altında olan Bab əl-Əbvabda taxıl anbarı tikilmiş və qonşu ölkələrdən toplanan taxıllar burada mühafizə olunurdu (əl-Bəlazuri, 1866, s. 190).

Ərəbdilli müəlliflərdən olan ət-Təbərinin "Tarixul-uməm ər-rusul əl-xuləfa vəl-muluk" əsərinin X əsrə aid edilən fars dilindəki tərcüməsinin "Azərbaycan və Dərbəndin fəthi" adlı fəsilində belə qeyd olunur: "Həmədan və Zəncandan Bab əl-Əbvaba qədər olan şəhərlərin hamısı Azərbayqana aiddir. Azərbayqanın ucqarına, oradan da Xəzər torpaqlarına aparan quru və dəniz yolları var və bu yol Dərbənd yolu adlanır, tazilər (ərəblər) isə Dərbəndə "Bab" deyirlər" (Ağayev, 2017, s. 34; Rəis Niyan, 1368, s. 80). Qeyd edilən məlumat əsasında Azərbaycanın şimal sərhəddinin Dərbənd olduğunu açıq şəkildə söyləmək olar. Ət-Təbəri eyni adlı əsərində xəzərlərin hücumundan bəhs edərkən onların ərəbləri məğlub edərək, Bab əl-Əbvabdan Azərbaycana daxil olduğunu və yaxud ərəblərin xəzərləri məğlub edərək onları Bab əl-Əbvabda Azərbaycandan çıxardıqlarını dəfələrlə qeyd edir (Ağayev, 2017, s. 34; ət-Təbəri, 1970, IV, s. 155-156; 246-247).

"Surət əl-ard" əsərində qızılboya bitkisi haqında məlumat verən İbn Havqəl, bu bitkinin bütün Arran ölkəsində yəni, Bab əl-Əbvab hüdudlarından Tiflisədək olan ərazilərdə, ər-Rass çayı yaxınlığından xəzərlərin qonşuluğunadək Azərbaycan hökmdarının hakimiyyəti altında olan bütün ərazilərdə bitdiyini qeyd edir (İbn Havqəl, 1928, s. 297).

İbn Havqəl adını qeyd etdiyimiz əsərində Xəzər ölkəsinin sərhədlərini Bab əl-Əbvaba qədər, Azərbaycan ölkəsinin sərhədlərini isə Bab əl-Əbvabdan Gilanın sərhəddindəki Simranədək uzandığını bildirir. İbn Havqəlin bu qeydləri orta əsrlərdə Bab əl-Əbvabın Azərbaycan şəhərlərindən biri olduğunu sübut edir.

XII əsrin ərəbdilli tarixçilərindən biri olan Nəşvan ibn Səid əl-Himyəri Bab əl-Əbvabı Azərbaycan şəhərlərindən biri kimi qeyd etməklə yanaşı onun "türk şəhəri" olduğunu bildirir (Nəşvan əl-Himyəri, 1974, s. 66). Həmçinin eyni əsərdə Arazdan şimalda yerləşən və Dərbəndə qədər uzanan bütün ərazilər "Azərbaycan türklər ölkəsinə" aid edilir (Ağayev, 2017, s. 35; Nəşvan əl-Himyəri, 1974, s. 65).

XIII-XIV əsrin ərəbdilli müəlliflərindən olan əz-Zəhəbi də "Tarix əl-İslam" əsərində Azərbaycan şəhərlərindən olan Bab əl-Əbvab haqqında məlumat verməkdədir. 709-cu ildə baş verən hadisələrdən bəhs edən əz-Zəhəbi, əməvi sərkərdələrindən olan Məsləmə ibn Əbdülməlikin türklərlə mübarizəsindən və onun "Bəhru-Azərbican" ("Azərbaycan dənizi") tərəfindən Bab əl-Əbvab şəhərinə çatdığını bildirir (əz-Zəhəbi, 2003, II, s. 1037; Ağayev, 2017, s. 35). XIII əsrin ərəbdilli müəlliflərindən olan Əbul-Fida "Təqvim əl-Buldən" əsərində "Bab əl-Əbvabı ucqar Azərbaycanda yerləşən şəhər" olaraq qeyd edir (Əbil Fida, 1840, s. 388). XIV-XV əsrin ərəb tarixçilərindən olan İbn Xəldun (1332-1406) ət-Təbəriyə istinad edərək yazır ki, qədim fars şahı Keyxosrov türklərin hökmdarı Əfrasiyabı və türkləri təqib edərək Azərbaycanda onların üzərində qələbə qazandı (İbn Xəldun, 2000, II, s. 188). 707-ci ilin hadisələrindən bəhs edən İbn Xəldun, sərkərdə Məsləmə ibn Əbdülməlikin "Azərbaycan nahiyələrindən olan türklər" üzərində qələbə qazandığını, 709-cu ildə isə onun yenidən "Bab əl-Əbvaba qədər "Azərbaycan türklərindən olan türklər" üzərinə hücum etdiyini bildirir (İbn Xəldun, 2000, III, s. 89).

Həsən ibn Qəhtəbənin Ərminiyədə vali olduğu dövrdə, Xaxet əhalisi ilə birləşən sanarlar müsəlmanlara qarşı hücuma keçirlər. Lakin, baş verən döyüşdə on min nəfər itki verən üsyançılar ağır şəkildə məğlub edilir (Mustafa, 2019, s. 95). Bu məlumat az fərqlə ərəbdilli müəlliflərdən olan Əsəm əl-Kufi və əl-Yəqubi tərəfindən

də qeyd olunur (Əsəm əl-Kufi, 1991, VII-VIII, s. 366; əl-Yəqubi, 2010, s. 310). Ərməniyədə qalıb Bərdədə yerləşən Həsən ibn Qəhtəbə, oğlanları Qəhtəbəni Bab əl-Əbvabın, İbrahimi Curzan və Tiflisin, Məhəmmədi isə Xilat və Qaliqala da daxil olmaqla, dördüncü Ərməniyənin hakimi təyin etmişdir (Mustafa, 2019, s. 95-96).

**Nəticə**

Nəticə olaraq qeyd edə bilərik ki, erkən ərəbdilli mənbələrin tədqiq edilməsi və öyrənilməsi bir daha təsdiq edir ki, Azərbaycanın orta əsr şəhərlərindən biri də Bab əl-Əbvab şəhəri olmuşdur. İqtisadi, ictimai, siyasi, mədəni və təsərrüfat baxımından digər şəhərlərdən geri qalmayan Bab əl-Əbvab, erkən orta əsrlərdə Azərbaycanın inkişaf etmiş şəhərlərindən biri olmuşdur. Bunları nəzərə alan ərəbdilli müəlliflər hərbi düşərgə, xəzinə və hökumət idarələrinin Bab əl-Əbvabda yerləşdiyini qeyd edirlər.

Azərbaycanın digər orta əsr şəhərləri kimi Bab əl-Əbvab şəhəri də yerli feodallar və gəlmə ərəblər tərəfindən idarə edilirdi. Feodalların bəziləri əldə etdikləri gəlirləri sələmə verərək böyük gəlir toplayırdılar. Feodalların sahib olduqları torpaqlarda yaşayaraq, bu torpaqları becərən kəndlilərdən xərac vergisini mübaşirlər (feodal nümayəndələri) toplayırdılar.

Beləliklə, ərəbdilli mənbələr Azərbaycan tarixinin, coğrafiyasının və onun şəhərlərinin öyrənilməsi üçün ən mühüm mənbələrdən hesab olunur. Gələcəkdə ərəbdilli mənbələrin daha dərindən araşdırılması Azərbaycan və onun şəhərləri haqqında yeni məlumatların ortaya çıxmasına və Azərbaycan tarixinin daha da dərindən öyrənilməsinə imkan verə bilər.

**Mənbə və ədəbiyyat siyahısı**

Ağayev, R. (2017). *Ərəb Xilafəti dövründə Azərbaycanın əhalisi.* Turxan NPB.

Bakıxanov, A. (1991). *Gülüstani-İrəm.* AMEA nəşriyyatı.

Bünyadov Z. (1989). *Azərbaycan VII-IX əsrlərdə.* Azərnəşr.

Əbul Fida. (1840). *Təqvim əl-buldan*, Dər us-Sadr.

Əl-Bəlazuri. (1866). *Futuhul-Buldan*, Mətbəəti Biril.

Əl-Bəlazuri. (1955). *Futuhul-Buldan* (Çev. Zakir Kadiri). Siyer yayınları, Ugan.

Əl-İstəxri. (1870). *əl-Məsalik vəl-məmalik.* E.J.Brill.

Əliyeva, N. (2020). *Mucəm əl-buldan əsərində Azərbaycan və Qafqaz.* Bakı: Elm və təhsil.

Əl-Yəqubi. (1860). *Kitab əl-buldan.* Bimətbəati Biril.

Əl-Yəqubi. (2010). *Tarixi-Yəqubi.* (II Cild). (Tahqiq Abd-Al Amir Mihnə). Şirkət-əl Aalami.

Əsəm əl-Kufi. (1991). *Kitab əl-Futuh. I-II.* Dar-ul Ədva.

Əsəm əl-Kufi. (1991). *Kitab əl-Futuh. V-VI.* Dar-ul Ədva.

Əsəm Əl-Kufi. (1991). *Kitab əl-Futuh. VII-VIII.* Dar-ul Ədva.

Əsəm əl-Kufi. (1995). *Kitabul-Futuh.* (Tərcümə: Z.Bünyadov). Azərbaycan Dövlət Nəşriyyatı,

Ət-Təbəri. (1970). *Tarixi rusul vəl-muluk.* (IV Cild). (təhqiq Məhəmməd Əbul-Fəzl İbrahim). Daru-l Maarif bi Mısr.

Ət-Təbəri. (1362). *Tarixi rusul vəl-muluk.* (V Cild). yayın yeri ve yayın evi yok.

Əz-Zəhəbi. (2003). *Tarix əl-İslam.* (II. Cild). Dərul-ğarbil-İslam.

İbn əl-Əsir. (1987). *əl-Kamil fit-tarix.* (II. Cild), Dərul-kutubul-ilmiyyə.

İbn əl-Əsir. (1986). *əl-Kamil fit-tarix* (Çev. Beşir Eryarsoy). Bahar yayınları

İbn əl-Fəqih. (1880). *Kitab əl-buldan.* Bimətbəəti Biril.

İbn əl-Fəqih. (1996). *Kitab əl-Buldan.* Aləmul-kutub.

İbn əl-Kəsir. (1998). *əl-Bidayə vən-nihayə.* (X. Cild). Bidəril-Hicr.

İbn əl-Kəsir. (1994). *əl-Bidayə vən-nihayə.* (Çev. Mehmet Keskin). Çağrı yayınları

İbn Havqəl. (1928). *Kitab Surət əl-ard.* Mətbəati Bəril.

İbn Xəldun. (2000). *Tarixi İbn Xəldun.* (II. Cild). Dar-əl Fikr.

İbn Xəldun. (2000). *Tarixi İbn Xəldun.* (III Cild). Dar-əl Fikr.

İbn Xordadbeh. (1989). *Kitab əl-məsalik vəl-məmalik.* Mətbəati Bəril.

Hacıyev, Q. (2008). *Bərdə şəhəri, coğrafi, siyasi və mədəni tarixi*. UniPrint.

*Hüdud əl-Aləm min əl-məşriqi iləl-məğrib.* (2002). Dərus-səqafiyyəti lin-nəşri.

Qudamə ibn Cəfər. (1981). *Əl-Xərac və sınaatul-kitabət.* Dər-ur-Raşidi lin-nəşr.

Məmmədova, A. (2010). *Gəncə antik və ilk orta əsrlərdə.* Tarix və onun problemləri jurnalı №3.

Mustafa, R. (2019). *Tiflis əmirliyi.* Turxan.

Müqəddəsi. (1991). *Əhsən ət-təqasim fi mərifəti əl-əqalim,* Məktəbəti mədbuli.

Nəşvan əl-Himyəri. (1974). *Muluku Himyər fi əqyalul-Yəmən*, Dərul-kutub.

Numani Şibli. (1980). *Bütün yönleriyle Hezret Ömer ve devlet idaresi. I-II* (Çev. Talip Yaşar Alp). Çağ yayınları.

Rəisniyan, R. (1368). *Azərbaycan dər seyri İran.* yayın yeri ve yayın evi yok.

Şərifli, M. (2015). *IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri*. Turxan.

Şərifov, Ş. (2016). *Ərəblərin xəlifə Ömər dövründə Azərbaycana edilən hərbi yürüşləri.* Geostrategiya, *Aylıq ictimai-siyasi, elmi-populyar jurnal, 05* (35) sentyabr-oktyabr.

Şərifov, Ş. (2018). *Raşidilər dövründə Azərbaycanda idarəetmə üsulu*. LDU *Elmi xəbərlər* (humanitar elmlər bölməsi), №1.

Şərifov, Ş. (2018). *Bərdə şəhərinin Xilafət tərəfindən fəthi*. ADPU Tarix, *İnsan və Cəmiyyət jurnalı, 2* (21).

Şərifov, Ş. (2019). *Azərbaycanın Xilafət tərəfindən fəthi və İslamın Azərbaycanda yayılması*. *Qərbi Kaspi Universiteti, Elmi xəbərlər jurnalı, 1.*

Şərifov, Ş. (2020). *Ərəb-Xəzər müharibəsi və Azərbaycan. Akademik Tarih ve Düşence Dergisi, İyun, 7* (1).

Vəlixanlı, N. (1974). *IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında.* Elm nəşriyyatı.

Vəlixanlı, N. (1993). *Ərəb xilafəti və Azərbaycan.* Azərnəşr.

Vəlixanlı, N. (2016). *Azərbaycan VII-XII əsrlərdə, tarix, mənbələr, şərhlər.* Elm və təhsil nəşriyyatı.

Yaqut əl-Həməvi. (1977). *Mucəm əl-buldan.* (I Cild). Dar əs-Sadr.

Yaqut əl-Həməvi. (1977). *Mucəm əl-buldan,* (III Cild). Dar əs-Sadr.

Artamonov, M. (1962). *İstoriya hazar.* İzd. Qos. Ermitaja.

Aşurbəyli, S. (1983). *Qosudarstvo Şirvanşaxov (VI-XVI vv.).* Elm nəşriyyatı.